# COVİD-19 xəstələrinin evdə müşahidəsi

Respublikada pandemiya başlayandan COVİD-19 koronavirus xəstəliyinin aşkar edilməsi məqsədilə aparılan test müayinəsinin nəticəsi müsbət olanlar mütləq qaydada xüsusi ayrılmış xəstəxanalarda təcrid edilmişdir. Tələblərə uyğun olaraq xəstəliyin klinik simptomları olanlarla yanaşı simptomları olmayan COVİD-19-a yoluxmuşlar xəstəxanalara yerləşdirilmiş və karantin dövrünü xəstəxanalarda başa vurmuşlar. Sonradan Respublikada karantin rejimində aparılan yumşaldılmalardan sonra bəzi insanların karantin qaydalarına əməl etməməsi səbəbindən yoluxmaların sayı artmaqla onların sayının sağalanların sayından çox olması bütün aşkar edilən xəstələrin xüsusi ayrılmış xəstəxanalarda yerləşdirilməsində çətinliklər yaratmışdır. Bu səbəbdən simptomsuz və yüngül əlamətləri olan xəstələrin evdə müşahidə olunması məsələsini gündəmə gətirmişdir. Nazirlər Kabineti yanında Operativ Qərargahın xüsusi qərarı ilə simptomsuz və yüngül xəstəlik əlamətləri olan COVİD-19-a yoluxmuş xəstələrin müvafiq müalicə müddətinin ev şəraitində izlənilməsinə icazə verilmişdir.Evdə təcridinə icazə verilən yoluxdurucu olan bu şəxslərin müşahidəsi həm həmin şəxslərdən, həm də tibb işçilərindən çox böyük məsuliyyət tələb edir. Xəstələrin evdə müşahidəyə cəlb edildiyi dövrdə onların tələblərə əməl etməməsi onların ailə üzvləri və ətrafdakıları üçün təhlükə yarada bilər. Evdə saxlanılaraq müşahidəyə cəlb edilən xəstələrə gündəlik nəzarət ailə həkimlərinə (sahə həkimlərinə) həvalə edilmişdir və onların tövsiyələrini xəstələr və onların yaxınları tərəfindən yerinə yetirilməsi mütləqdir. Bu sahədə karantin rejmini pozan şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar və Cinayət Məcəlləsində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.



COVİD-19-lu xəstəliyin əlamətləri ağır gedişli və risk faktorları olanların müalicəsi mütləq qaydada xüsusi ayrılmış xəstəxanalarda aparılmalıdır. Risk faktorları olanlara 60 yaşından yuxarı şəxslər, siqaret çəkənlər, ürək-damar, şəkərli diabet, arterial hipertoniya, xroniki tənəffüs, böyrək çatışmamazlığı, immun çatmamazlığı, piylənmə, qanazlığı xəstəlikləri olan və s. aiddir.

Xəstələrin evdə təcridi müddətində evi tərk etməsi və ziyarətçi qəbul etməsi qəti qadağandır. Onların evi tərk etməsinə xüsusi qurğular və proqram təminatı vasitəsilə nəzarət olunur. Xəstələrə və onların yaxınlarına ayrılmış tibb işçisi tərəfindən tənəffüs gigiyenası mövzusunda təlim öyrədilir. Evə gələn tibb işçisi fərdi qoruyucu vasitələri tam geyinir, evdə nəzarət ediləcək xəstəyə müşahidə müddətində özünütəcrid qaydaları və bu qaydaların pozulmasının hüquqi məsuliyyəti izah edilir, müvafiq razılıq forması xəstəyə imzalatdırılır. Gündə iki dəfə olmaqla ailə həkimi 14 gün müddətində xəstənin səhhəti və vəziyyəti barədə telefonla izləniləmklə “COVİD-19 xəstənin evdə monitorinq forması” na əsasən öyrənilərək elektron ambulator kartaya əlavə edilir.

Xəstənin ailə üzvlərinin yoluxma riskinin qarşısını almaq üçün onun mümkündürsə, digərlərindən ayrı otaqda, mümkün olmadıqda başqalarından azı 1 metr məsafədə saxlanılmalı və tibbi maska taxması zəruridir. Maska nəm olduqda yenisi ilə əvəz olunur. Onun ev daxilində hərəkəti mümkün qədər məhdudlaşdırılmalıdır. Xəstə insana qulluq üçün tam sağlam ailə üzvlərindən yalnız biri ayrılır, həmin ailə üzvü fərdi qoruyucu vasitələrindən istifadə edir. Şərait olduğu təqdirdə, xəstə ayrı tualet və hamam otağından istifadə edir. Ümumi tualet və hamam otağından istifadə edilərsə, həmin otaqlar tez-tez havalandırılmalıdır. Tualet və hamam otaqları gün ərzində ən azı bir dəfə 1 faizli xlorlu əhənglə dezinfeksiya edilməlidir. Xəstə şəxsi əşyaların başqaları ilə bölüşdürməməli və əşyalardan digər ailə üzvləri ortaq istifadə etməməlidir. Bu əşyalar sabun və su ilə yuyulmalı, onun istifadə etdiyi paltar, dəsmal, yataq örtüyü kimi tekstil məhsulları 60-90 C-də yuyucu toz ilə yuyulmalıdır. Xəstənin otağını ailə üzvü təmizlədikdə əlcəkdən və tibbi maskadan istifadə etməlidir. Bədən mayeləri ilə çirklənmə halında bütün səthlər dezinfeksiyaedici məhlulla silinir.

Evdə saxlanılan COVİD-19-la xəstə özündə respirator xəstəlik əlamətlərini (qızdırma, halsızlıq, öskürək, ürəkbulanma, nəfəs darlığı) hiss etdiyi halda 103 nömrəli təcilli tibbi yardım xidmətinə zəng etməlidir. Belə halda xəstələr birbaşa xüsusi ayrılmış COVİD-19 xəstəxanalarında təcrid olunur.Yaşı 60-dan çox və ya ağır gedişli COVİD-19-a səbəb ola biləcək risk faktoru olan xəstə şəxslərin müşahidəsi və müalicəsi xüsusi rejimli tibb müəssəsində icra edilir. Xəstəxanaya yerləşdirilmiş və sonra sağalma ilə evə yazılma tələblərinə cavab verən xəstələr bərpa müddətini ailə həkiminin nəzarəti ilə ev şəraitində tamamlayır

Bəzi hallarda xəstəliyin simptomları olmayan və ya yüngül simptomları olan şəxslər ev şəraitində də klinik vəziyyətinin ağırlaşması müşahidə edilə bilər. Xəstədə qızdırma, öskürək, əzələ ağrıları, halsızlıq, boğaz ağrısı, tənəffüs çatmamazlığı və ya təngnəfəslik və qoxu, dad hissinin itirilməsi əlamətləri ola bilər. Belə xəstələr vaxtında xüsusi ayrılmış xəstəxanaya yerləşdirilərək müalicəyə cəlb edilmədikdə xəstədə ağciyərlərin iltihabı, kəskin böyrək çatmamazlığı, sepsis və ya septik şok, ağciyər və ürək çatmamazlığı və s. inkişaf edə bilər ki, bu da ölümlə nəticələnir.

Evdə təcrid olunan yüngül xəstələrdə temperatur yüksəldikdə istirahətin təmin olunması, su-duz balansını bərpa etmək üçün bol maye qəbul etmək tövsiyə edilir. Öskürəyi olan şəxslərin yan tərəfi üstə və ya yarımoturaq vəziyyətdə olmasına üstünlük verməsi məsləhət bilinir. Arxası üstə uzanmaq öskürək refleksini artıra bilər. Öskürəyi yüngülləşdirmək məqsədilə çay ilə bal içilə bilər. Tənəffüs çatızmazlığı hiss etdikdə otaq sərin saxlanılmalıdır. Otağı soyutmaq üçün qızdırıcı söndürülməli və pəncərələri açmaq lazımdır, virusun yayılmasının qarşısını almaq məqsədilə ventilyatorun istifadəsi qadağandır. Əlavə olaraq xəstə şəxs nəfəsi burun və ağızdan asta verməli,sanki şam söndürülür. Oturacağa əyləşdirilməli, çiyinləri rahat tutaraq, bel əyilmədən düz saxlanılmalıdır və bir az irəli əyilmək, əllər düz və ya möhkəm dayağa qoyulmalıdır. Xəstə nəfəs darlığı hiss etdikdə həyecanlanmaq və qorxuya düşmək vəziyyəti ağırlaşdıra bilər. Qeyd edildiyi kimi, evdə saxlanılan aşağı riskli xəstələrin təqibi 12 saatdan bir telefonla ailə həkimi tərəfindən aparılır. Xəstə və xəstənin yaxınları həkimi tam və düzgün məlumatlandırmalıdırlar. Beləliklə, COVİD-19-la belə xəstələrin evdə təcrid edilməsi tələblərinə əməl edilməsi həm xəstənin həyatı həm də, ətrafdakıların yoluxmaması üçün çox böyük məsuliyyətlidir.

**Cavanşir MƏLİKOV,**
**Qəbələ RMX-nın PHŞ-in direktor müavini.**

# Dezinfeksiyaedici və qoruyucu vasitələr paylanılıb

Bildiyimiz kimi, koronavirus (COVİD19) pandemiyası bütün dünyanı təşvişə salmış, vahimə isə davam edir.

Pandemiya təhlukəsinin yarandığı ilk günlərdə havalar isindikcə virusun azalacağı və bəlkə də, yox olacağı haqqında fərziyyələr gəzirdi. Bəzən bu fərziyyə insanlarda virusdan azad olunma inamı yaradırdı. Yay mövsümü başlandıqdan sonra da pandemiyanın yenə tüğyan etməsi əhali arasında daha ehtiyatlı və məsuliyyətli olmağı tələb edir.

Karantin rejimləri sayəsində əldə olunan nəticələri koronavirus ikinci və daha təhlükəli dalğası ilə bir həmlədəcə məhv edir. Hazırda dünyanın bütün ölkələri bu görünməz savaşla daha məsuliyyətlə mübarizəyə qalxmışlar.

Ölkəmizdə də pandemiya ilə əlaqədar ciddi tədbirlər görülür. Birinci dalğa zamanı, virusun yayıldığı ilk mərhələdə pandemiya ilə əlaqədar məsafələr ciddi nəzarətdə saxlanıldı. Ölkəmizin Prezidenti cənab İlham Əliyev insanların sağlamlığını, onların həyatını ön planda, həmişə diqqət mərkəzində saxlamışdır. Bu məqsədlə zəruri və effektiv tədbirlər bu gün də davam etdirilir.

Əhali arasında maarifləndirmə işləri aparılır, virusdan qorunmaq üçün qoruyucu vasitələr paylanılır.

Qəbələ rayonunda da bu pandemiyadan qorunmaq üçün lazımi tədbirlər görülür. Ölkə Prezidentinin bu virusdan qorunmaq üçün verdiyi qərar və göstərişlərə məsuliyyətlə əməl olunur.

Rayonumuzda koronavirusla mübarizə məqsədilə dezinfeksiya və təmizlik işləri davamlı olaraq həyata keçirilir. Bu işləri həyata keçirən təşkilatların işçilərinin maska, əlcək, təmizləyici vasitələr və yuyucu maddələrlə təmin olunması daima diqqətdə saxlanılır.

Qəbələ Qızıl Aypara Bölməsi tərəfindən “Bir damın altında ümidlə sabaha” layihəsi çərçivəsində hazırlanmış “Ümid 2020” gigiyenik bağlamaları Rayon Kommunal Müəssisəsi və 11 saylı Yol İstismarı idarəsinin işçilərinə iş üstündə paylanmış və virusdan qorunma qaydaları barədə maarifləndirici söhbətlər aparılmışdır.

**Sədaqət BAYRAMOVA,**
**Qəbələ Qızıl Aypara Bölməsinin sədri.**

# Könüllülük

Könüllülük öz iradəsi və sərbəst seçimi əsasında əvəzi ödənilməyən fəaliyyət növüdür. Könüllü isə bu ictimai faydalı fəaliyyəti şəxsən həyata keçirən şəxsdir. Bu gün dünyada ictimai və cəmiyyət maraqları naminə təmənnasız əmək sərf edən on milyonlarla insan var. Nə xoşdur ki, o milyonların arasında Azərbaycan gəncləri də artıq öz yerini tutub.

Hələ 2015-ci ildə I Avropa Olimpiya oyunları Bakıda keçirilən zaman Azərbaycan gənclərinin bu tədbirin təşkilində və tərtibatında göstərdikləri yüksək əmək onların vətənə olan sevgisinin, bağlılığının bariz nümunəsi idi. Çünki yalnız ölkəsini sevən, ona təmənnasız xidmət etməyi özünə borc bilən könüllülər bu yolda irəli addımlaya bilərdi..Bu fədakarlıq isə hər zaman gənclərə xüsusi diqqət və qayğı ilə yanaşan ölkə başçısının gözündən yayınmadı və gənclərimizin, xüsusi ilə son illər ölkəmizdəki ictimai-mədəni tədbirlərin həyata keçirilməsində göstərdikləri könüllü xidmətlərini 2019-cu il dekabrın 30-u imzaladığı Sərəncamla dəyərləndirdi.Sərəncamda 2020-ci il "Könüllülər İli"elan edildi.

Ölkə başçısı cənab İlham Əliyevin bu sərəncamı ölkəmizdə gənclər siyasətinin keyfiyyətcə yeni mərhələyə daxil olması, ümumilikdə bu sahəyə göstərilən diqqət və qayğıdan irəli gələn addım kimi qiymətləndirilir. Sərəncamda qeyd olunur ki, könüllülük, həm də vətənpərvərlik məktəbi, öz xalqına, dövlətinə, milli-mənəvi dəyərlərə bağlılıq və xidmət örnəyidir.

Təsadüfi deyil ki, öz fəaliyyətində Azərbaycan Respublikası Prezidentinin "Biz birlikdə güclüyük" şüarını rəhbər tutan Azərbaycanın minlərlə Könüllüləri bugünədək Azərbaycan Könüllülərinin Əlaqələndirmə Mərkəzi (AKƏM)-nin təşkilatçılığı ilə keçirilən "Böyüklərimizi qoruyaq", "Könüllü qonşu", "Könüllü donor" aksiyalarında iştirak ediblər. Bununla yanaşı, hal-hazırda dünyanı ağuşuna alan gözəgörünməz düşmən olan koronavirus (COVİD 19) pandemiyası ilə mübarizədə dövlətimizə dəstək olmaq üçün səfərbər olan Könüllülərimiz "Bir-birimizi qoruyaq" adlı aksiyaya start verərək insanların kütləvi toplaşdığı yerlərdə sosial məsafə və digər davranış qaydaları barədə ictimai maariflendirmə aparmaqla, eyni zamanda ictimai nəqliyyat vasitələrinə, dayanacaqlara məlumatlandırıcı və xəbərdaredici lövhələr asmaqla,bir sıra yardım kampaniyaları təşkil etməklə əllərindən gələn köməyi əsirgəmədiklərini bir daha nümayiş etdirirlər.

Dövlətin gənclərə xüsusi diqqət və qayğı ilə yanaşması, onlara hərtərəfli dəstək göstərməsi hər bir gəncdə özünə, öz gücünə, istedadına inam hissini artirir. Bir halda ki, yeni ideyaların, təşəbbüslərin müəllifi olan gənclərimiz "Könüllər İli"nin əsas iştirakçıları kimi bütün qüvvə və bacarıqlarını səfərbər edərək müasir müstəqil Azərbaycanımızın daha da qüdrətlənməsinə, çiçəklənməsinə, innovasiyalar ölkəsi kimi nüfuzunu daha da artırmasına böyük töhfələr verir. Elə isə, gəlin, yaşımızdan asılı olmayaraq hər birimiz vətənimizi sevməyə, onu qorumağa, milli-mənəvi dəyərlərimizə sahib çıxmağa, onları yaşatmağa və gənc nəsillərə ötürməyə, günəşli sabahlar naminə Könüllü olaq!!!